# Bolqarıstan Azərbaycanla münasibətlərin inkişafına böyük maraq göstərir



Dünən Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikası xarici işlər nazirinin müavini Yuri Şterk ilə görüşüb.

Birinci vitse-spiker bu cür görüşlərin ikitərəfli əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu söylədi. Dövlət başçılarının qarşılıqlı səfərlərinin, aparılan danışıqların əlaqələrin gücləndirilməsində önəmli rol oynadığını vurğuladı. Qeyd edildi ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədədir. İqtisadi, ticarət, energetika, mədəni sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Ticarət dövriyyəsini yüksəltmək üçün geniş potensial mövcuddur.

Bildirildi ki, dövlətlərarası əlaqələrin möhkəmləndirilməsində parlamentlərin rolu böyükdür. Hər iki ölkənin qanunverici orqanlarında fəaliyyət göstərən parlamentlərarası əlaqələr üzrə işçi qruplarının əməkdaşlığı təcrübə və informasiya mübadiləsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ziyafət Əsgərov qonağın diqqətinə çatdırdı ki, ölkəmizdə gedən quruculuq işləri, müşahidə olunan yüksək tərəqqi ilə yanaşı, yerləşdiyimiz bölgənin təhlükəsizliyini təhdid altında saxlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmaması böyük narahatlıq yaradır. Problemin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq qurumların qəbul etdikləri qərarlar mövcuddur. Bu sənədlərdə Ermənistan silahlı qüvvələrinin qeyri-şərtsiz işğal olunmuş torpaqlardan çıxarılması tələb olunur, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı dəstəklənir. Lakin təəssüflə qeyd etməliyik ki, Ermənistan tərəfi bütün bu sənədlərə məhəl qoymur, öz işğalçılıq siyasətini davam etdirir. Ziyafət Əsgərov Bolqarıstanı bu məsələdə Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə çağırdı.

Ölkəmizdə keçirdiyi görüşlər, aparılan müzakirələr barədə danışan Bolqarıstan xarici işlər nazirinin müavini Yuri Şterk iki dövlət arasında nəqliyyat, energetika, turizm, kənd təsərrüfatı, mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyini söylədi.

Bildirildi ki, Bolqarıstan Azərbaycanla münasibətlərin inkişafına böyük maraq göstərir. Siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq yüksək səviyyədədir. Qarşılıqlı faydalı əlaqələrin inkişafında qanunverici orqanlar arasında əməkdaşlıq xüsusi önəm daşıyır. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, qanun yaradıcılığı sahəsində təcrübə mübadiləsi çox əhəmiyyətlidir.

Qonaq Dağlıq Qarabağ məsələsində Bolqarıstanın mövqeyinin dəyişməz olduğunu söylədi. Ölkəsinin bu problemin beynəlxalq hüquq normaları çərçivəsində, sərhədlərin toxunulmazlığı prinsipi əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirdi. Bu istiqamətdə keçirilən yüksək səviyyəli görüşləri, aparılan danışıqları alqışladıqlarını dedi.

Söhbətdə iki ölkə arasında münasibətlərin daha da yaxşılaşdırılması, əməkdaşlığın gələcək inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

*Səbinə MƏMMƏDOVA,*
*"Azərbaycan"*